# Dövlətimiz vətəndaşların maraqlarını müdafiə edən mütərəqqi addım atdı

**Ziyad Səmədzadə,
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri**



Problemli kreditlər məsələsi son 4 ildə ən çox müzakirə edilən, gündəmin ən vacib məsələlərindən biridir. 2015-ci ildə ölkənin bank-maliyyə sektorunda yaşananlar, Beynəlxaq Bank ətrafında baş verənlər, 21 fevral və 21 dekabr devalvasiyaları əhalinin banklara olan kredit borclarının ödənilməsində çox ciddi problemlər və sıxıntılar yaratdı. Xüsüsilə, dollarla götürülən kreditlərin ödənilməsində banklarla müştərilər arasında ciddi narazılıqlar özünü büruzə verməyə başladı. Çox təəssüflər olsun ki, bu illər ərzində problemin qarşılıqlı anlaşma şəraitində həlli istiqamətində də banklarla əhali arasında dil tapmaq mümkün olmadı. Banklar özləri də bu yöndə hansısa addım atmaq istəmədi və beləliklə, problem bugünkü duruma gəlib çıxdı. Bu məsələ parlamentdə də, bizim komitədə də dəfələrlə müzakirə mövzusu oldu, problemin həlli istiqamətində millət vəkilləri, komitə üzvləri tərəfindən ən müxtəlif təkliflər səsləndirilirdi. Çünki millət vəkilləri vətəndaşları, seçiciləri, xalqı parlamentdə təmsil edirlər. Bu baxımdan, xalqın təmsilçiləri olaraq da insanlar bu məsələ ilə bağlı bizə üz tutur, müraciət edərək kömək umurdular. İnsanlarla, seçicilərlə görüşlərdə onlar tərəfindən bu məsələ daim dilə gətirilirdi. Şəxsən mən özüm də bu məsələ ilə bağlı istər parlamentdəki çıxışlarımda, istər mətbuatdakı yazılarımda dəfələrlə mövqeyimi bildirirdim. Xatirinizdədirsə, sonuncu - 2019-cu ilin büdcə müzakirələri zamanı çıxışımda növbəti dəfə banklarla bağlı məsələyə toxunaraq, onlardan faiz dərəcələrinə yenidən baxmalarını, bu faizləri xeyli dərəcədə aşağı endirmələrini tövsiyə, təklif etmişdim.

Çünki indiki faiz dərəcələri həddindən artıq çox yüksəkdir. 30, 28, 26 faiz və sair, çox yüksək rəqəmdir. Bunun mütləq aşağı, yarıbarıya endirilməsi lazımdır. Eyni zamanda, belə vəsaitlər istehlak kreditlərindənsə, real iqtisadiyyata yönəldilməlidir. Banklar real iqtisadiyyata vəsait qoymaqla, kredit ayırmaqla həm özlərinə, həm də ümumilikdə iqtisadiyyatımızın inkişafına, insanlarımızın rifah halının yaxşılaşdırılmasına daha çox töhfə verə bilərlər. Təəssüflər olsun ki, ötən müddət ərzində problemlərin həlli arzu olaraq qaldı, Hətta bankların sağlamlaşdırılması ilə dövlət tərəfindən addımlar atılsa da, banklar tərəfindən bu istiqamətdə bir hərəkətlilik olmadı.

Sevindirici və təqdirəlayiq haldır ki, artıq bir çox məsələlərdə olduğu kimi, bu məsələdə də dövlət başçısı cənab İlham Əliyev öz mövqeyini açıq şəkildə ifadə etdi, problemin həllinin vacibliyini və yollarını bəyan etdi. Belə ki, fevralın 25-də ölkə prezidentinin yanında keçirilən müşavirədə problemli kreditlər məsələsinin həlli yönündə addımların atılmasının nəzərdə tutulduğu bildirildi. Dövlət başçısı bu məsələnin ciddi bir problemə çevrildiyini bildirərək, onun həlli ilə bağlı tapşırıqlar verildiyini, aidiyyatı qurumların son iki ay ərzində onunla məşğul olduğunu söylədi və əlavə etdi ki, bu problemin də həllinə çox vaxt qalmayıb. Elə bu yerdə qeyd edim kimi, problemli kreditlər məsələsi həmçinin birinci vitse-prezident Mehriban Əliyevanın da daim diqqətdə, nəzarətdə saxladığı məsələlərdən biri olub. Hətta, problemli kreditlərin həlli ilə bağlı müvafiq İşçi Qrupunun iclaslarında da iştirak edərək, öz məsləhətlərini və tövsiyələrini verib. Bütün bunların nəticəsi olaraq, fevralın 28-də problemli kreditlərin həlli ilə bağlı tarixi Fərman verilib.

Bütövlükdə götürdükdə bu fərmanla 2015-ci il devalvasiyalarından yaranan xarici valyutada olan kreditlərin dəyər artımına görə veriləcək kompensasiya vətəndaşların bu gün mövcud olan kreditlərinin əsas məbləğinin ödənilməsinə yönəldiləcək. Söhbət ödəmə müddəti 360 gündən keçən 10 min ABŞ dolları və 17 min manatadək olan kreditlərdən gedir. Həmin kreditlərin faizləri və dəbbə pulları silinəcək. Əgər ödənilən vəsait kreditin bağlanması üçün yetərli deyilsə, kreditin qalan hissəsi ucuz kredit vasitəsilə vətəndaş üçün daha uzun müddətə uzadılacaq. Yox, əgər kreditə görə ödənilən kompensasiya devalvasiya məbləğindən daha çoxdursa, vətəndaş üçün kart hesabı açılacaq və vəsait oraya yönəldiləcək.

Dünyanın heç bir ölkəsi belə bir addıma getməyib, ancaq Azərbaycan dövləti bunu etməyi bacardı. Problemli kreditlər də təxminən 1,6 milyard manatdır, son bir ayda pensiyalarla, müavinətlərlə, əməkhaqqı artımları ilə bir yerdə bu 2,2 milyard manat vəsait deməkdir. Deməli, Azərbaycan dövlətinin siyasətinin ana xətti əhalidir, insanlardır, onların rahatlığının təmin edilməsidir. Bu, həm də onu göstərir ki, iqtisadiyyatımız güclü, dinamik inkişaf edir və iqtisadiyyatımızda yaranan sabitlik, artan gəlirlər hamısı problemli kreditlərin həll olunmasının maddi əsaslarını əhəmiyyətli dərəcədə möhkəmləndirir. Biz ona görə bir daha dövlət başçısına, birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığımızı ifadə edirik ki, problemli kreditlər məsələsinə son qoydular. Eyni zamanda, bankların özlərinin üzərinə böyük məsuliyyət düşür.

Banklar özlərinin fəallıqlarını və real sektora, real iqtisadiyyata dəstəyi artırmalıdırlar. Müəyyən edilmiş müddətdə fərmanda əksini tapmış məsələləri həll etməlidirlər.

*“Fərmanı oxuyan, onu təhlil edən hər bir vətəndaş bunu görə bilər. Bu, çox ciddi bir sosial təşəbbüsdür. Dövlət bir daha göstərir ki, öz vətəndaşının yanındadır. Bizim iqtisadi imkanlarımız yarandıqca, ilk növbədə problemli kreditlər məsələsini həll etməyə qərar verdik və bunu bacardıq. Onu da bildirməliyəm ki, ciddi devalvasiyadan əziyyət çəkən ölkələrin sayı kifayət qədər çoxdur və bizdən də dərin devalvasiyaya uğramış ölkələr vardır. Ancaq heç bir ölkədə bu dərəcədə sosialyönümlü, vətəndaşın marağını güdən addım olmayıb. Yəni, bütün bu sosial paket təqribən 3 milyona yaxın insanı əhatə edir və bir daha bizim niyyətimizi göstərir”.*

***İlham ƏLİYEV***

**Ağalar Vəliyev,
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini**



Problemli kreditlərin həlli barədə Prezident İlham Əliyevin fərmanı tarixi əhəmiyyət kəsb edən bir sənəddir. Prezident İlham Əliyevin tapşırığına əsasən iki aydan çox bir müddət ərzində bu məsələnin həlli istiqamətində araşdırmalar gedib. Bu prosesdə bir çox strukturlar iştirak edib. Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Fərman uzun müddət müzakirə olunan və əhalini daha çox narahat edən sosial məsələlərin həlli deməkdir. Nəticə etibarilə vətəndaşların diqqət mərkəzində olan bu problem öz həllini tapdı. Həmin problemin həlli yüz minlərlə insanın bu güzəştdən istifadə etməsinə şərait yaradacaq. Fərmana əsasən, xarici valyutada kredit götürmüş fiziki şəxslər bu güzəştlərdən faydalanacaq. Güzəşt 10 min dollar həcmində kredit borclarına tətbiq olunacaq.

Problemli kreditlər məsələsi dövlətin vəsaitləri hesabına həll olunacaq, həm də bank vəsaitlərdə bu işə cəlb olumacaq. Bunun üçün Mərkəzi Bank kommersiya banklarına 682 milyon manatlıq aşağı faizlə kredit ödəyəcək. Banklar tərəfindən hesablanmış artıq faizlər, cərimələr silinəcək, məhkəmələrdə olan işlərin isə geri çağırılması təmin olunacaq. Bizdə olan məlumata əsasən bununla əlaqədar olaraq məhkəmələrdə 311 min iş var. Problemə vətəndaşların mövqeyi nəzərə alınmaqla yanaşma həmin işlərin də vətəndaşların xeyrinə həll olunması ilə nəticələnəcək. Bütün bunlar Azərbaycan dövlətinin öz vətəndaşına hansı qiyməti verdiyinin, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını sübut edir.

Mərkəzi Bankın statistikasına əsasən, problemli kreditlərin həcmi 1 milyard 620 milyon manatdır və bu, kredit portfelinin təxminən 14 faizini təşkil edir. Hazırda banklardan kredit götürən vətəndaşlarımızın sayı 2,5 milyon nəfərdir.

Ümumilikdə, bu fərman problemli kreditlər məsələsinin köklü şəkildə həll edilməsinə imkan verəcək. Həmçinin, bu, vətəndaşların sosial təminatının gücləndirilməsi baxımından ciddi addım kimi qiymətləndirilməlidir.

Regionlarda, rayonlarda keçirdiyim görüşlər zamanı insanlar görülən tədbirlərdən çox razılıq edirlər. Onlar dövlətin həmişə öz vətəndaşının yanında olduğunu vurğulayırlar. Bütün bunlar, eyni zamanda, iqtisadi fəallığın artacağını deməyə də əsas verir. Düşünürəm ki, imzalanmış fərman və sərəncamlar vətəndaşlarla yanaşı, banklara da müsbət təsir göstərərək, onların fəaliyyətini aktivləşdirəcəkdir.

**Arif Hüseynov,
iqtisad elmləri doktoru, professor**



Bəllidir ki, ölkədə iki devalvasiya baş verib. Məsələn, 2015-ci ilin 21 fevral tarixinə bir vətəndaşın 1000 dollar krediti var idi. O zaman 1 ABŞ dollarının məzənnəsi 0,78 qəpik idi. Devalvasiyadan sonra 1,05 qəpik oldu. Yəni 27 qəpiklik artım oldu. Məlum fərmanla 1000 ABŞ dolları kreditə birinci devalvasiyada artan dəyər 150 ABŞ dolları kimi qiymətləndirilib. Bu təqribən 250 manata bərabər bir məbləğdir. Bu da həmin artan dəyərin tamamilə kompensasiya edilməsi deməkdir.

Bir şəxsin 21 fevral 2015-ci il tarixə 1000 dollar krediti varsa, sonradan bu krediti banka ödəyib, qaytarıb-qaytarmamasından asılı olmayaraq, vətəndaşa hər 1000 ABŞ dollarına 150 ABŞ dolları və yaxud 100 ABŞ dollarına 15 ABŞ dolları kompensasiya hesablanmaqla manatla ödəniləcək. Əgər həmin vətəndaş ikinci devalvasiyadan sonra bu məbləği banka geri ödəyibsə, yaxud bugünkü günə qədər ödəməyibsə, həmin 1000 ABŞ dolları krediti olan vətəndaşa 500 ABŞ dolları kompensasiya ödəniləcək. Yəni, birinci devalvasiyada bizim artımımız 15 ABŞ dolları idi. İkinci devalvasiya - 21 dekabr 2015-ci il tarixində kurs 1.05 qəpikdən 1.55 qəpiyə qalxdı. Birdən-birə 50 qəpik dəyişdi. Bu da təqribən 0,35 ABŞ dolları kimi qiymətləndirilir. Odur ki, ikinci devalvasiyaya məruz qalmış 1000 dollarlıq kreditə 350 dollarlıq kompensasiya ödəniləcək. Birincidə 150 dollar, ikincidə 350 dollar - cəmi hər iki devalvasiya müddətində ödənilməyən 1000 dollarlıq kreditə 500 dollar məbləğində kompensasiya ödəniləcək. Bu kompensasiya da həmin kredit yükünün bağlanmasına yönəldilməlidir. Kreditin məbləği 10 min dollardırsa, bu şəxsə hər iki devalvasiyadan keçən 5000 dollar məbləğ ödəniləcək. Əgər kredit birinci devalvasiyadan sonra götürülübsə, yalnız ikinci devalvasiyanın təsirinə məruz qalıbsa, hər 100 dollara 35 dollar və yaxud 1000 dollara 350 dollar, 10 000 dollara 3500 dollar kompensasiya ödəniləcək.

Burada ən vacib məqamlardan biri də odur ki, problemli kreditlərlə bağlı məhkəmə işləri dayandırılacaq, məhkəmələrin qərar və qətnamələri qüvvədən düşmüş olacaq. Ölkə prezidentinin verdiyi tarixi fərmanın başlıca üstünlüklərindən biri də elə budur. Çünki banklarla vətəndaşlar arasında gedən məhkəmə işləri həddindən artıq çox idi. İnsanlar neçə illərdir məhkəmə işlərindən, məhkəmə çəkişmələrindən əzab-əziyyət çəkirdilər, burada böyük haqsızlıqlar da vardı. Sirr deyil ki, bəzi banklar lazım olmayan hərəkətlər edirdilər, insanları məhkəmə yolu ilə çıxılmaz vəziyyətə salırdılar, yəni bu illər ərzində evlərini, mülklərini, maşınlarını itirənlər də az deyil. Bununla bağlı böyük narazılıqlar da yaranırdı, insanlar bu haqsızlıqlarla əlaqədar bizə müraciət edirdi. Təsəvvür edin, milyona yaxın insanı, yüz minlərlə ailəni əhatə edən 311 mindən artıq məhkəmə işi indi geri çəkiləcək. Artıq məhkəmə işləri geri qaytarılacaq, dayandırılacaq, qüvvədən salınacaq, insanlar rahat nəfəs ala biləcəklər. Bununla yanaşı, kim ki, ötən müddətdə banklara artıq pul ödəyib, dəymiş zərər ona qaytarılacaq. Eyni zamanda, bütün bu məsələlərin həlli nəticəsində insanların inkişaf göstəriciləri yaxşılaşacaq. İnsanlara dəymiş ziyanın ödənilməsi, 311 min məhkəmə işinin geri çəkilməsi həm də böyük humanist addımdır, böyük humanizm nümunəsidir.

**Mehriban Yadulla,
BDU-nun dosenti**



Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” imzaladığı Fərman, ilk növbədə dövlət başçımızın sosial məsələlərlə bağlı həyata keçirdiyi mühüm tədbirlərin tərkib hissələrindəndir. Eyni zamanda, bu fərman sosial məsələlərlə bağlı Azərbaycanın liderliyinin fundamental əhəmiyyət kəsb edən bir göstəricisidir.

Dövlətimizin başçısının Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında fərmanı ilə vətəndaşların kredit problemi də həll olundu və bu, onun xalqa xidmətin daha bir nümunəsidir.

Azərbaycan cəmiyyəti bu qərarı gözləyirdi. Şübhəsiz ki, bu, mürəkkəb yanaşma tələb edən ciddi bir məsələ idi. Problemli kreditlər bir milyard dollardan çox məbləği əhatə edirdi. Onun həll olunması üçün optimal variant tapmaq lazım idi. İmzalanan fərmandan aydın olur ki, vətəndaşlara dəyən az qala bütün zərərin ödənilməsi ilə bağlı qərar qəbul edilib. Dövlət problemin həlli ilə bağlı məsuliyyətin və maliyyə vəsaitinin böyük hissəsini öz üzərinə götürüb. İki dövr və mərhələdə alınan kreditləri əhatə edən qərar bütövlükdə problemli kreditlərin hamısının həllinə töhfə verəcək. Vətəndaşlarımız bir daha hiss etdilər ki, Azərbaycan dövləti və prezidenti daim onların yanındadır. Hər hansı bir forsmajor vəziyyəti yaranarsa, dövlət onların problemlərini həll etməyə qadirdir. Bunun üçün Azərbaycan prezidentinin siyasi iradəsi var.

**Azad Quliyev,
iqtisadçı**



Azərbaycan Prezidenti İlham Əliyevin problemli kreditlərin həlli ilə bağlı fərmanını mən də bir iqtisadçı, vətəndaş kimi yüksək qiymətləndirirəm.

Bu fərman 100 minlərlə insanların sevincinə səbəb olan bir hadisədir. Məhkəmələrdə olan 311 mindən çox işin geri qaytarılması müsbət və xoş hadisədir.

Əvvəla, bu güzəştdən fiziki şəxslər olan vətəndaşlarımız faydalanacaqlar. Bu zaman birinci devalvasiyayadək olan dövr və birinci və ikinci devalvasiya arasındakı müddət əsas götürüləcək. 2012-ci il yanvarın 1-dən 2015-ci il dekabrın 21-dək, yəni birinci devalvasiyadək olan dövr üçün hər 1 dollar 0,25 qəpik güzəşt hesablanacaq. Bu o deməkdir ki, birinci devalvasiyayadək 10 min dollar kredit götürmüş vətəndaşın manatla krediti 7800 manat idisə, devalvasiyadan sonra bu rəqəm 10500 manatadək yüksəldi. Fərmanla birinci devalvasiyayadək 10 min dollar kredit götürən vətəndaş əsas məbləği 2500 manat olan güzəşt əldə edə bilir.

Bununla da onun əsas borcu 10500 manatdan 8000 manatadək azaldılır. Birinci devalvasiya və ikinci devalvasiya arası götürülən kreditlər üçün isə hər dollara 60 qəpik güzəşt tətbiq olunacaq. Bu, 10 min dollara 6 min manat güzəşt deməkdir. Həqiqətən, miqyasına, əhatə dairəsinə görə bu, xalqımız tərəfindən heç vaxt unudulmayacaq bir hadisədir.